■ Ağamir CAVAD

# OL - "LO"

"Gələcəkdə yaşayaram" deyib sənət dünyasına qədəm qoyan Əjdər Cəbiyev yaradılışın sirrini vaxtında dərk edib "Alın yazısına düzəliş" etdi və Əjdər Ol oldu. "Ol" təxəllüsü yazarlarımızın götürdüyü çoxsaylı təxəllüslər arasında ən çox diqqəti çəkən, dəyərləndirdiyimiz təxəllüslərdən biridir.

Bizim nəsil - ötən əsrin səksəninci illərdə ədəbiyyata gələn nəsil həyat meydanına atılanda "Ol" sözünün bir missiyasını da üzərinə götürdü - azad olmaq missiyasını. Biz öz daxili azadlığımızdan güc alıb Vətənin müstəqilliyi, azadlığı uğrunda mübarizəyə qoşulduq. Həyatımız, yaradıcılığımız torpaqlarımız uğrunda döyüşlərdə, azadlıq eşqi ilə çağlayan meydanlarda keçdi. Xalqla bir yerdə olduq. Hadisələrin canlı şahidinə çevrildik. O baş verən olaylar, hadisələr haqqında çoxlu sayda şeir və poemalar, hekayə və romanlar yazılıb və bundan sonra da yazılacaq. Bu əsərlər içərisində ən çox diqqəti çəkən və məncə, heç vaxt öz dəyərini itirməyəcək bir canlı roman da olacaq: Əjdər Olun "LO" romanı.

İlk diqqəti çəkən romanın adıdır: "LO". iki səsdən ibarət olan bu söz həm səslənməsi, həm də mənasına görə "OL" sözü ilə əks anlamdadır, antonimdir. "OL" yaranmaq, qurulmaq anlamındadırsa, "LO" - bəla, yanmaq, dağılmaq mənasındadır. "LO" sözü, adətən, danışıq dilimizdə işlənir. Ədəbi dilimizdə işlənən "lov" sözündəki son səsin düşməsindən yaranıb. Lova düşmək - çaxnaşmaya, bəlaya, qovğaya düşmək anlamını verir. "Lov" deyəndə, nədənsə, yadıma böyük şairimiz M.Ə.Sabirin "Od deyil, yanğı deyil, lovdur, lov" misrası düşür. Məncə, elə "lov" sözü də "alov" sözündəki "a" səsinin düşməsindən yaranmışdır. Bu "lov"- alov adi od, yanğı deyil. Bu məhşər alovudur - "LO"dur.

Müstəqillik qazanana qədər hansı oddan, alovdan keçmədi yurdumuz, vətənimiz? Nə qədər "lo" ilə, bəla ilə üzləşdi. Nə qədər haqsızlıq, itki, şəhid gördü. Nə qədər ölüm yanğısı gördü. Nə qədər könüllü olaraq ölümə gedənlərin vətən eşqini, vətən yanğısını gördü.

Çoxumuz hadisələrin canlı şahidiyik. Romanda özümüzü görürük. Müəllifin dili ilə desək, roman bizim tərcümeyi-halımızdır. Hər birimizin və Vətənin tərcümeyi-halı.

Hər vətəndaş vətənin əsgəridir. Bu hərəkatda iştirak edən hər bir Əsgər təkcə döyüşmür, mübarizə aparmır, eyni zamanda vətənin ictimai-siyasi tərcümeyi-halını yaşayır. Əsərin qəhrəmanları milli azadlıq hərəkatında, dövlət müstəqilliyi ilə mübarizədə, Qarabağ döyüşlərində fəal iştirak edən tanıdığımız insanlardır. Romandakı hadisələr isə ağrısını-acısını yaşadığımız real hadisələrdir. Əsərin qəhrəmanlarının əksəriyyəti bu gün də real həyatda rastlaşdığımız siyasətçilər, ictimai xadimlər, alimlər, şairlər, dövlət quruculuğunda iştirak edən digər tanınmış şəxsiyyətlərdir. Bu baxımdan, müəllif əsərini ədəbiyyatşünaslıqda yeni bir termin kimi səslənən "canlı roman" adlandırması təqdirəlayiqdir.

Əsər "lo" xəbərlə başlayır. Çernobl Atom Elektrik Stansiyasında baş vermiş qəza bütün ölkəni laxlatdığı üçün respublikamızdan da yan keçmir. Orada iştirak edən əsgər oğullarımızın xəstələnməsi, bədənlərində atom şüası daşıması, məncə, rəmzi məna daşıyır. Bu atom dalğası təkcə təbiətdə, bədənimizdə yox, həm də düşüncəmizdə dəyişiklik yaratdı.

Ölkə rəhbəri M. Qorbaçovun yenidənqurma siyasəti, ölkəni lazımınca idarə edə bilməməsi, milli münasibətlərin düzgün qurulmaması, respublikalara ögey münasibəti, xalqlar arasında qarşıdurma yaratması ikinci "lo"dur. Yuxarıların ölkəni idarə edə bilməməsi, aşağıların əvvəlki kimi boyunduruq altında yaşamaq istəməməsi azadlıq, müstəqillik uğrunda yeni inqilaba meydan açır. Azadlıq isə verilmir, qan bahasına alınır. Keçmiş SSRİ ərazisində müstəqillik uğrunda ilk mübarizəyə qalxan respublikalardan biri də Azərbaycandır. Mərkəzin məkrli siyasəti xalqımızın müstəqillik qazanmaması üçün min qanlı oyun qurub ötən əsrin əvvəllərindən bir neçə dəfə baş vermiş erməni-müsəlman qırğınını qızışdırması bu qanlı oyunların birincisi, ən böyüyü və hələ də bitməyənidir. Ermənilərin Rusiya və Avropanın digər xristian dövlətlərinə arxalanaraq torpaqlarımızı işğal etməsi, minlərlə insanın öz doğma yurdlarından didərgin düşüb qaçqın həyatı yaşaması, cəbhədə baş verən qanlı olaylar da böyük bir "Lo"dan xəbər verir. Ölkədaxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə, daxili birliyin pozulması, partiyalararası qarşıdurmalar, təcrübəsiz, səriştəsiz adamların ölkəni idarə edə bilməməsi də başqa bir "Lo"dur.

Bütün bunlarla yanaşı əsərin qəhrəmanlarının içində bir "Ol" inamı var. Heç vaxt qələbəyə ümidini itirməyən işıqlı bir qurtuluş inamı - "Ol" inamı. Bu qurtuluş inamı işıq kimi əsər boyu oxucunu izləyir.

Müəllif hadisələrə birtərəfli baxmır. Xüsusi ilə Meydan hərəkatını mənfi və müsbət cəhətləri ilə birgə açıqlayır. Qəhrəmanları idealizə etmir.

Əsər birinci şəxsin dilindən danışılır. Hadisələrin şahidi olan müəllifin məqsədi nə salnamə yazmaq, nə də xatirə danışmaqdır. Məqsəd hadisələrin mahiyyətini bədii və siyasi cəhətdən açmaq, bu zaman kəsiyində vətənin və onun vətəndaşlarının vəziyyətini göstərməkdir. Əsərdə publisistik ovqat nə qədər güclü olsa da, müəllif bu maneəni aşmış, oxucuya canlı bir roman təqdim etmişdir. Əsəri oxuyarkən bizə elə gəlir ki, baş qəhrəman elə biz özümüzük, hadisələri müəllif yox, sanki biz özümüz nəql edirik. Təsadüfi deyil ki, müəllif əsəri "hər kəsin romanı" adlandırır.

Əsərdə ən çox diqqəti çəkən obrazlardan biri də Qaradır. Əslində, onun adı Qarakişidir. Yazıçı əsər boyu onu Qara kimi səsləndirsə də, onun haqqında ilk məlumat verərkən yazır: "Atam qardaşıma atasının adını qoymuşdu: Qarakişi". Müəllif Qaranı bütün sınaqlardan keçirir. Çernobl qəzasında xilasedici, zərərçəkmiş əsgər kimi, sevgilisi Lalə ilə birgə Meydan hərəkatının ən fəal üzvlərindən biri kimi, Qarabağ torpaqlarının müdafiəsində iştirak edən döyüşçü kimi... Qardaşının inamını doğruldan Qara bütün bu sınaqlardan uğurla çıxır. Və əsərin sonunda qardaşı onu ilk dəfə öz adı ilə çağırır: Qarakişi. Hərçənd ki, müəllif əsərin əvvəlində bütün obrazların adlarını dəyişmədən öz adları ilə adlandıracağını bildirir. Ancaq mən bu adda bir rəmzi məna görürəm. Qara sözünün ilkin mənası "böyük" deməkdir. Qarakişi - Böyük kişi mənasını verir. Vətən uğrunda böyük kişilik məktəbini alnıaçıq, üzüağ keçdiyi üçün adı bütövləşir. Çünki o, ata-babalar kimi adını daşımağa layiqdir.

Romanda vətənin ağır vaxtlarında, özbaşınalıq, idarəsizlik dövründə müəllif insanları üç qrupa bölür: birincisi, sidq ürəklə mübarizəyə qoşulan, torpaq uğrunda döyüşlərdə fəal iştirak edənlər, ikincisi, siyasi çəkişmələrdən öz xeyrinə istifadə edib mövqe qazanmaq istəyən, şəxsi qazancını artırmaq istəyən möhtəkirlər və bir də bu hadisələrin ağrı-acısını çəkənlər. Romanın bir yerində müəllif bizi bir küçədə üç yas məclisindən keçirir. Ölənlərdən biri əlində qumbara partlayıb ölən, silah alveri ilə məşğul olan möhtəkir, biri Qarabağ döyüşlərində qəhrəmancasına həlak olan əsgər, üçüncüsü isə bu ağır günlərin ağrı-acısını qəlbində gəzdirən, hər gün bir ağır xəbər eşidib daim narahat bir ömür yaşayan, sonda ürəyi bu ağrılara dözməyib çat-çat olmuş Ayna ana. Elə Ayna adı da rəmzləşir bizimçün. Qəlbi güzgü kimi, şüşə kimi saf, təmiz olan narahat analarımızın simvolik obrazı kimi canlanır gözümüz önündə Ayna ana.

Müəllifin ən uğurlu cəhətlərindən biri ayrı-ayrı hadisələri bir-biri ilə əlaqələndirmə bacarığıdır. Təhkiyəçi hadisələrdən gah keçmişə, gah da gələcəyə ekskurs edərək elə ustalıqla danışır ki, elə plastik keçidlər edir ki, yorulmursan. Hadisədən çıxmaq və yenidən hadisəyə qayıtmaq roman boyu dəfələrlə təkrar olunsa da, hiss edirsən ki, yazıçı əsərə daxil etdiyi kiçik həcmli lətifə və hadisələri düşüncələrini, ideyasını çatdırmaq üçün məqsədli etmiş, əsərə bir az da uğur gətirmişdir.

O dövrdə Bakı və Qarabağ hadisələri haqqında canlı şahidi olduğumuz, eləcə də mətbuatdan oxuduğumuz və digər şahidlərdən eşitdiyimiz yaddaşımızda o qədər məlumat var ki, romanı oxuyarkən özümüzdən asılı olmayaraq unudulmuş məqamlar axtarırıq. Hətta bəzən əsərə bədii cəhətdən yox, xronoloji cəhətdən yanaşırıq. Unuduruq ki, hadisələrin çoxluğu, bədii təhkiyənin publisistikaya meyl etməsi müəllifi janrdan çıxarmışdır. Roman janrının ənənəvi xüsusiyyətləri sanki qəsdən pozulmuş, ədəbiyyatşünaslar üçün "tənqid yeri" qoyulmuşdur.

Əsərdə səksəninci illərin sonu, doxsanıncı illərin əvvəllərində Azərbaycana rəhbərlik etmiş Ə.Vəzirovun, A.Mütəllibovun, Ə.Elçibəyin və böyük siyasi təcrübəsi olan dövlət xadimi H.Əliyevin obrazları yaradılmışdır. Əsəri oxuyarkən hiss edirsən ki, ölkədaxili siyasi mübarizədə və döyüş bölgəsində məğlubiyyətin əsas səbəbi




ölkənin vahid mərkəzdən idarə olunmamasıdır. Orduda, siyasətdə qruplaşmalar və qarşıdurmalar, vahid birliyin pozulması, milli məsələlərin düzgün qurulmaması ölkəni "LO" vəziyyətinə gətirib çıxarmışdır. Belə ağır məqamda vəziyyətdən çıxış yolu Heydər Əliyevi hakimiyyətə gətirilməsidir. H.Əliyevin siyasi təcrübəsinə inanan xalq onu dəstəkləyir. Müəllifin: "Atam məndən daha çox inanırdı ona", - deməsi təsadüfi deyil. Çünki yaşlı nəsil hələ yetmişinci illərdən H.Əliyevin idarəçilik bacarığına bələd idi. Yeri gəlmişkən qeyd edim ki, əsərdə ata obrazı qayğıkeş bir valideyn olmaqla yanaşı müdrik bir məsləhətçi kimi oxucu tərəfindən sevilir, yadda qalır.

H.Əliyevin hakimiyyətə gəlməsi ilə hadisələr bitir və müəllif janra qayıdıb romanı yekunlaşdırır.

Roman xoş bir yaz səhərində işə gedən əsərin qəhrəmanının: "Artıq yazdığım romandan çıxmışdım," - cümləsi ilə bitir. Bu cümlənin də alt qatında bir məna var. Əsərin qəhrəmanı romandan çıxmaqla "LO"dan, lovdan çıxır... Və "OL"a doğru gedir. Onun üçün Fərəhli günlər hələ qabaqdadır. Elə qəhrəmanın timsalında Vətən də "LO"dan çıxaraq "OL" ömrünü yaşamağa başlayır.

"OL" ömrü isə heç vaxt bitməyən Tanrı yazısı, Tanrı alqışıdır.